UNEC

Kafedra: Humanitar Fənlər

Fənn: AZƏRBAYCAN TARİXİ

Mövzu 11.Şimali Azərbaycan XX əsrin əvvəllərində 1900-1917

MÜHAZIRƏÇI: MƏHƏBBƏT PAŞAYEVA , tarix elmləri doktoru, professor

ƏLAQƏ: *pashayeva.m@gmail.com*

Dərs başlıqları

1. XX əsrin əvvəllərində Azərbaycan iqtisadiyyatı
2. Azərbaycanda siyasi partiyaların yaranması. Ideologiyalar və siyasi istiqamətlər.
3. Azərbaycan I Dünya müharibəsi illərində. (1914-fevral 1917).
4. XX əsrin əvvəllərində Azərbaycan mədəniyyəti.

ƏDƏBİYYAT

1. XX əsr Azərbaycan tarixi. II cild. B., 2004, s. 3-180.

- 2. Azərbaycan tarixiVII cilddə.. V cild. B., “Elm”, 2001, s. 18-267.
- 3. Azərbaycan tarixi.(ən qədim zamanlardan – XXI əsrin ilk onilliklərinədək).Ali məktəblər üçün dərslik. Bakı, 2014, s. 210-238
- M.Paşayeva. Şimali Azırbaycan XX əsrin əvvəllərində, Bakı, 2006.
- 4.Azərbaycan tarixi. XIX-XXI əsrin əvvəli Ali məktəblər üçün mühazirələr kursu. A.Ə.Rzayevin ümumi redaktəsi ilə. Bakı, 2010.
- Mir Möhsün Nəvvab . 1905-1906-cı illərdə erməni-müsəlman davası. 1993.
- Rəsulzadə M.Ə. Seçilmiş əsərləri, I c., Bakı, 1997, II c., 2001
- Svietoxovski T. Rus Azərbaycanı 1905-1920.Ankara.1988.
- Saray M. Azərbaycan türkləri tarixi. İstanbul.1993.
- Yücər N. I Dünya müharibəsində Osmanlı Ordusunun Azərbaycan və Dağıstan əməliyyatı. Bakı 1999.
- Yusif Akcura . Türkçülüyün tarixi. Bakı,2006.
- Məmmədov X. Azərbaycan milli hərəkatı (1875-1918-ci illər), Bakı, 1996,
- E.Əzizov. «Difai»: XX əsrin əvvəllərində erməni-azərbaycanlı münaqişəsinin ilkin tarixi şərtləri və səbəbləri. Bakı, 2009.
- A.Paşayev. Ermənilərin Azərbaycan xalqına qarşı ərazi iddiaları, soyqırımları və deportasiyalar. (XIX-XX əsrlər). Bakı, 2011.

Dövrün başlıca xüsusiyyətləri

- Sənaye çevrilişinin başa çatması
- Burjua cəmiyyətinin və proletariatın formalaşması
- İnhisarçı kapitalizm mərhələsinin başlanması və əsas əlamətləri:böhranlar təmərküzləşmə, maliyyə oliqarxiyasının meydana gəlməsi, kapital ixracının üstün əhəmiyyət kəsb etməsi, dünyanın yenidən bölüşldürülməsi uğrunda mübarizə
- Siyasi partiyaların yaranması

XX əsrin əvvəllərində Azərbaycanda iqtisadi-siyasi vəziyyət

- İnhisarçı kapitalizm
- Böhranlar, işsizlik, etirazların geniş vüsət alması
- Azərbaycanlılara qarşı soyqırımı siyasətinin başlanması
- İctimai hərəkat və siyasi partiyaların təşəkkülü
- Cənubi Azərbaycanda Məşrutə inqilabi,

1900-1903-cü illər dünya iqtisadi böhranı

- Dünya böhranı ilə baglı olaraq Rusiya sənayesinə xarici kapital axınını dayandı.
- XIX əsrin sonları – XX əsrin əvvəllərində həm Azərbaycanda, həm də bütün ölkədə iqtisadi böhran nəticəsində kütləvi işsizlik baş verdi. Bu da ölkəni fəhlə hərəkatının mərkəzlərindən birinə çevirdi.
- 1902-ci ilin yanvarında hökumət Bakı şəhərində hərbi vəziyyət elan etdi.
- 1900--1903-cü illərdə 112 min fəhlənin çalışdığı 3 mindən çox müəssisə bağlandı. Bu şəraitdəfəhlələrin siyasi fəallığı yüksəldi. Məhz bu dövrdə fəhləhərəkatının iqtisadi tətillərdən siyasi tətillərə çevrilməsi baş verdi.

Böhranın neft sənayesinə təsiri

- 1900 – 1903-cü illərdə neft sənayesinin bütün sahələrində iqtisadi böhranın əlamətləri özünü göstərirdi.
- 1901-ci ildə neft hasilatı 671,2 milyon pud olmuşdusa, 1903-cü ildə bu rəqəm 596,6 milyon puda düşərək 11%-ə yaxın azalmış, qazma işləri min sajendən 49 min sajenə enmiş, işləyən quyuların 45,5%-i dayanmışdı.
- Neft hasilatı və emalı ilə məşğul olan 170 şirkətdən 1903-cü ildə 153-ü fəaliyyət göstərirdi.
- Bakıda neft emal edən 78 zavoddan 1901-ci ildə 76-sı işləyirdisə, artıq 1903-cü ildə çoxu öz işini dayandırmışdı.

Neft sənayesində istehsalın təmərküzləşməsi

- İqtisadi böhran nəticəsində xırda və orta müəssisələrin iflasa uğraması neft sənayesində istehsalın təmərküzləşməsi prosesini gücləndirmişdi.
- Bakı üzrə neft şirkətlərinin 3,6%-ni təşkil edən 6 nəhəng şirkət **(Nobel qardaşları birliyi, Mantaşov, Rotşild, Bakı neft cəmiyyəti, Xəzər - Qara dəniz birliyi,** Rus neft istehsalı və maye yanacaq cəmiyyəti) Bakıda çıxarılan bütün neftin 50%-ni verirdi.
- Adı çəkilən ilk üç şirkət 1901-ci ildə Bakıda istehsal olunan neftin 25%-ni və ixrac edilən ağ neftin 40%-ni, Rusiyaya ixrac olunan neft məhsulların isə 70%-ni öz əlində cəmləşdirmişdi.
- Neft emalı sənayesində də təmərküzləşmə prosesi gedirdi. 1900-cü ildə 6 iri emal zavodu ağ neftin 44%-ni, təkcə“Nobel qardaşları” şirkətinə məxsus zavodlar isə 22%-dən çoxunu istehsal edirdi.
- 1904-cü ildə 7 nəhəng zavod bütün ağ neftin 50,5%-ni verirdi

Neft ixracı

- Böhran təkcə neft ixracıına öz təsirini göstərməmişdi.
- 1900-cü ildə Bakıdan neft ixracı 88 milyon puda çatmışdı.
- İri neft şirkətləri neft ixracını inhisara almaq uğrunda kəskin rəqabət aparırdılar. Hətta böhran illərində də iri neft şirkətləri neft satışından böyük gəlir götürürdülər.
- 1902-1904-cü illərdə “Nobel qardaşları” şirkəti 9,3 milyon manat, “Bakı Neft Cəmiyyəti” 1,5 milyon manatdan çox, Rus “Neft” birliyi isə 1 milyon manata yaxın xalis gəıir əldə etmişdi.

Neft sənayesinə xarici kapitalın axını

- XX əsrin əvvəllərində neft sənayesinə xarici kapitalın axını güclənmişdi.
- 1902-ci ildə Bakının neft sənayesində 39,4 milyon manat kapitalı olan 11 ingilis müəssisəsi fəaliyyət göstərirdi.
- 1904-cü ildə İngiltərə ağ neftə olan tələbatının 47,1%-ni, Fransa isə 71,1%-ni Bakının hesabına ödəyirdi.
- Ancaq ABŞ-ın iri “Standart oyl” neft şirkəti ilə Bakı sənayeçilərinin 1904-cü ildə neft ixracı üzrə bağladıqları müqavilədən sonra dünya bazarlarında Bakı ağ neftinin xüsusi çəkisi getdikcə azalırdı

Bank kapitalının Bakı neft sənayesinə nüfuzu

- XX əsrin əvvəllərində Rusiya bank kapitalı Bakı neft sənayesinə nüfuz etməyə başlamışdı.
- Nobel, Mantaşov və b. Rusiya bankları və xarici banklarla sıx bağlı idilər.
- Eyni zamanda iri neft sənayeçilərinin dövlət aparatı ilə ittifaqı möhkəmlənir, dövlətin inhisarlara təsiri güclənirdi.

Bakı nefti böhrandan sonra durğunluq mərhələsində(1904 – 1907)

- Bakıda neft çıxarılması azalaraq 610 mln. puddan 1907-də 476 mln. puda düşmüş, ağ neft istehsalı 40% azalmışdı Bakıda 87 neft emalı zavodundan cəmi 33-ü işləyirdi.
- Neft sənayesində təmərküzləşmə prosesi daha da güclənmiş, neft çıxarılması, emalı, daşınması və satışı “Nobel qardaşları”, “Nobmazut”,“Oyl”,“Şell”inhisarlarının əlində cəmləşmişdi.
- 1907-ci ildə Bakıda cəmi 155 neft şirkəti var idi.
- Buruqların 55%-i, neft hasilatının 66%-i 6 iri neft şirkətinin nəzarəti altında idi.
- 6 iri neft şirkətinə məxsus neftayırma zavodları bütün ağ neftin 65%-ni, mazutun 59%-ni, sürtgü yağlarının isə 75%-ni istehsal edirdi.
- 1910-cu ildə Rusiyada sənaye yüksəlişi başlasa da , Bakıda neft istehsalını sabitləşdirmək mümkün olmadı.

Neft sənayesində tənəzzül və səbəblər

1910-cu ildə 481 mln. pud, 1913-cü ildə 468 mln. pud neft çıxarılmışdı ki, sonuncu rəqəm 1901-ci ildəkindən 200 mln. pud az idi.

- 1910 – 1913-də 84 neftayırma zavodundan 20-si bağlanmış, yalnız 30-u daimi istehsalla məşğul olurdu.
- Nəticədə həmin illərdə mazut istehsalı 186,7 milyon puddan 157,3 milyon puda düşmüş, ağ neft istehsalı 1914-cü ildə 1900-cü ilə nisbətən 43%-ə yaxın azalmışdı.
- Neft sənayesində **tənəzzülün əsas səbəblərindən biri** bu sahəyə yeni müasir texnika və texnologiyaların tətbiq edilməməsi idi.
- İri kapitalist ölkələrinin neftçıxarma sənayesində dərin nasoslar və kompressorlar kimi müasir texniki avadanlıqlardan geniş istifadə olunsa da, Bakıda neft keçən əsrin 80–90-cı illərindəki texnika ilə – jalonkalarla çıxarılırdı.
- 1913 – 1914-də Bakıda neftin 4/5 hissəsi öz dövrünü keçirmiş buxar mühərrikləri vasitəsilə çıxarılırdı.
- İri neft şirkətləri neft istehsalını süni şəkildə azaldaraq neft məhsullarının qiymətini qaldırmaqla (2- 8 dəfə) böyük qazanc götürürdülər.
- Nəticədə ölkədə yaranmış neft qıtlığı şəraitində təkcə Nobel qardaşları şirkətinin qazancı 1910-də 5,3 mln manatdan 1913-də 15 mln man. çatmışdı.

Sənayenin digər sahələri

- XX əsrin əvvəllərində sənayenin əksər sahələrində istehsalın təmərküzləşməsi prosesi gedirdi. .
- Nisbətən iri sənaye müəssisələrinin sayı azlıq təşkil etsə də, Bakı quberniyasında istehsal olunan 74,1 mln. manatlıq ümumi sənaye məhsulunun böyük hissəsi – 62,9 mln. manatı (83,3%) onların payına düşürdü.
- Bakı quberniyası üzrə bütün sənaye müəssisələrində çalışan 27.167

Bakı limanı

- Şm.Azərbaycanın daxili və xarici ticarətində böyük rol oynayırdı.
- 1912-də limanın ümumi mal dövriyyəsi 350 milyon puda çatmışdı.
- Dəniz yolu ilə Rusiyaya 300 mln puddan çox neft məhsulları göndərilirdi.
- Azərbaycandan Rusiyaya pambıq, xam ipək, mis, şərab, balıq məhsulları aparılır, oradan isə neft sənayesi üçün avadanlıqlar, taxıl, qənd, meşə materialları və s. gətirilirdi.
- Cənubi Azərbaycanın daxil olduğu İranla aparılan ticarət dövriyyəsinin illik dəyəri 20 – 25 milyon manata çatırdı və ixrac idxalı üstələyirdi.
- 1910 – 1915-də Xəzər ticarət donanmasında 831 gəmi

Azərbaycanda milli təfəkürün formalaşması İdeologiyalar və siyasi istigamətlər.

1905-1907-ci illərdə Şimali Azərbaycanda baş vermiş siyasi hadisələr:

Dekabr ümumi tətili.

Azərbaycanlılara qarşı soyqırımı siyasətinin başlanması;

Bakıda fövqəladə vəziyyət elan edilməsi

Azərbaycan xalqının milli azadlıq hərəkatının mərhələləri.

- **I dövr (1875-1904-cü illər)** 1875-ci ildə «Əkinçi» qəzetinin nəşri ilə başlanmış bu dövr maarifçilik vəmilli-mədəni dirçəlişin inkişaf mərhələsi idi. Şərti olaraq «Əkinçi dövrü» adlanır. Bu dövrdə milli oyanış baş vermişdir.
- **II dövr-1905-1917-ci ilin fevralı.** Bu illərdə açıq siyasi mübarizə başlamış, Rusiya imperiyasına qarşı siyasi tələblər irəli sürməklə bərabər siyasi partiyalar (İttifaqi-müslimin, Difai, Müsavat) və təşkilatlar yaratdılar.
- **III dövr-1917-ci ilin fevralından 1918-ci ilin mayı** . Bu dövrdə milli hərəkat federativ respublika tərkibində Azərbaycan türklərinin milli-muxtar cümhuriyyətini yaratmaq uğrunda mübarizə başladı. Həmçinin islamçılıq, «ümmətçilik» ideyalarına türkçülük əlavə edildi 1918-ci ilin martından sonra hərəkat müstəqil milli dövlətin yaradılmasıuğrunda mübarizəyə çevrildi.
- **IV dövr 1920-ci ilin aprelindən 1991-ci ilin 18 oktyabrı.** Bu mərhələdə sovet işğal sisteminə qarşı açıq və ya gizli, formada mübarizə aparılmış, nəhayət 1991-ci il oktyabrın 18-də Dövlət müstəqilliyi bərpa edilmişdir.

1. Türk və islampərəst milli burjua hərəkatı
2. Bu hərəkatdan öz məqsədləri üçün istsfadə etməyə çalışan bolşevik erməni-rus ittifaqının təsiri altına düşən sosialist hərəkatı.

Milli hərəkatın güclənməsinə təsir göstərən amillər

Milli hərəkatın güclənməsinə təsir göstərən amillər:

- **Azərbaycan ziyalılarının milli özünüdərketməsi, mənəvi dəyərlərin araşdırılması meyllərinin artması;**
- **Çarizmin türk-müsəlman xalqlarına qarşı milli müstəmləkə siyasəti.**
- **“Milliyət və hürriyyət” , “Məşrutə və musavat”ideyalarının geniş yayılması;**
- **Milli burjuaziya və demokratik ziyalıların əsas aparıcı qüvvə olması;**

1905-ci il inqilabının Azərbaycana təsiri

- Rusiya müsəlmanlarının siyasi təşkilatı– «İttifaqi-müsəlman» adlandırılan Ümumrusiya Müsəlman İttifaqı yarandı.
- Azərbaycan burjuaziyası ilə Rusiyanın müsəlman burjuaziyası birliyi yaranır.
- Təşəbbüskarları Krım və Kazan tatarlarının burjua ziyalıları R.İbrahimov, Y.Akçurin, İ.Qasprinski idi.

Ümumrusiya Müsəlman İttifaqının qurultayları

- **İlk qurultay** 15 avqust 1905-ci ildə Nijni-Novqorodda keçirildi.
- Tələbləri-«Rusiyanın bütün müsəlmanlarını birləşməsi», müsəlman burjuaziyasının hüquqlarının rus burjuaziyasının hüquqları ilə eyniləşdirilmək, müsəlmanlara münasibətdə hüquq bərabərsizliyini aradan qaldırmaq, «müsəlmanların doğma dillərində məktəblərin açılmasını, kitab və qəzetlərin buraxılması
- **II qurultay** 1906-cı il yanvar ayının 13-23-də Peterburqda qeyri-leqal şəraitdə keçirildi. Bu qurultayda din xadimləri, burjuaziya və ziyalıların nümayəndələri iştirak edirdi. Azərbaycandan A.M.Topçubaşov, Q.Qarabəyov, A.X.Axundov iştirak edirdilər Qurultayda Dövlət Dumasına seçkilər, həmçinin ittifaqın vahid siyasi partiyanın yaranması müzakirə olundu
- **III qurultay** 1906-cı ilin 16-21 avqustunda keçirildi. A.M.Topçubaşov sədr seçildi. İttifaqın proqramı qəbul edildi:
- ideyası-Rusiyanın bütün müsəlmanlarının birləşməsi, konstitusiyalı monarxiya, mülkədarlara əvəzinin ödənilməsi şərtilə kəndlilərə torpaq verilməsi,, milli-mədəni muxtariyyət prinsipi

II Dövlət Duması

- Iki məsələni müzakirə etməli idi – aqrar məsələ vəinqilabçılara qarşı fövqəladə tədbirlərin görülməsi.
- Azərbaycanı F.Xoyski, X.Xasməmmədov, Z.Zeynalov, M.Şahtaxtinski, M.Mahmudov, İ.Tağıyev təmsil edirdilər. Sonuncu Peterburqa getmədi.
- Azərbaycandan olan deputatlar müsəlman fraksiyasının tərkibinə daxil oldular. F.Xoyski və X.Xasməmmədov büronun tərkibinə seçildilər. Müsəlman fraksiyasının işində A.M.Topçubaşov da fəal iştirak edirdi.
- F.Xoyski 173 deputatla birlikdə 1907-ci il mayın 18-də dini inanclar və milli mənsubiyyətlə bağlı məhdudiyyətlərin ləğvi ilə əlaqədar çıxış etdi
- Aqrar məsələ ilə bağlı-kəndlilərin heç bir qiymətə torpaq sahələrini almaq iqtidarında olmadığı üçün kəndlilərə torpağın bağışlanması təklifi ilə F.Xoyski, Z.Zeynalov çıxış etdilər. Aqrar məsələnin müzakirələri nəticəsiz başa çatdı.
- II Nikolay 1907-ci il iyunun 3-də Dumanın buraxdı II Dövlət Duması 103 gün ömür sürdü. Qarşısına qoyduğu heç bir məsələni həll etmədi.

III Duma

- 1907-ci il noyabrın 1-də III Dumanın çağırılması müddətini təyin etdi.
- III Dumada deputatların sayı 524-dən 442-yə endirildi.
- III Dumanın əsas vəzifəsi: ölkənin hərbi qüdrətinin artırılması,
- Bakı şəhəri Dumaya seçki nümayəndəliyindən məhrum edildi. Qafqaz 28 əvəzinə 10 deputat göndərə bilərdi.
- Bakı, İrəvan və Yelizavetpol quberniyalarından X.Xasməmmədov nümayəndə seçildi.
- Müsəlman fraksiyası 8 nəfərdən ibarət idi. Rəhbər:X.Xasməmmədov
- Fraksiyanın məqsədi:zemstvo (yerli idarəçilik) müəssisələrinin təsis edilməsi, ibtidai təhsilin ana dilində aparılması kimi islahatlara və s. nail olmaq
- 1911-də X.Xasməmmədov hərbi mükəlləfiyyət barədə məsələ qaldırdı. Müsəlman fraksiyası hərbi mükəlləfiyyətin müsəlmanlara da şamil edilməsi və əsgəri borcun yerinə yetirilməməsi əvəzində ödənilən xüsusi pul vergisinin əleyhinə çıxış etdi
- 1912-ci il iyunun 9-da çarın fərmanı ilə III Dumanın iclasları dayandırıldı.

IV Duma

- 1912-ci il noyabrın 15-də açıldı.
- Azərbaycandan Məmməd Yusif Cəfərov nümayəndə seçildi.
- 7 nəfərdən ibarət müsəlman fraksiyası yaradıldı.
- müsəlmanlara hüquqların verilməsi ilə bağlı məsələ qaldırılırdı
- M.Y.Cəfərov öz çıxışlarında çarizmin əyalətlərdə yerli əhalini sıxışdırmaqla rus elementini gücləndirmək məqsədilə köçürmə siyasətinə mənfi münasibət bildirirdi. Müsəlmanlara aid mövcud hüquqi məhdudiyyətlərin ləğvi uğrunda çalışır, müsəlmanların Dumada məhdud şəkildə təmsil olunmasının əleyhinə olan çıxışlar edirdi.
- IV Dövlət Dumasında dövlətə müxalifət qüvvətləndi.

Әли бәј һүсејнзадә
(1864-1940-чы илләр),
Азәрбајҹан милли-азадлыг
һәрәкатынын идеологу.

İsmayılbəyQaspirinski(1852-1914)
Həsən bəy Zərdabi (1842-1907)

Исмаҝыл хан Зијадханов
(1867-1920-чи илләр).
"Мүдафиә" партијасынын
башчысы, I Дөвләт
думасынын депутаты.

Мөһәммәдһәсән Ҝамынски
(1875-1931-чи илләр).
Истеҝдадлы мүһәндис,
танынмыш ичтимаи-сијаси
хадим.

1905-1906-cı illərdə ermənı-Azərbaycan münaqişəsi

- Hələ XIX əsrin sonu – XX əsrin əvvəllərindən başlanan münaqişə 1905-ci ilin əvvəlində, rus inqilabının başlanması ilə daha da kəskinləşdi.
- Rusiya imperiyası milli-azadlıq və inqilabi hərəkatlarının qarşısını almaq məqsədilə milli münaqişələri qızışdırırdı
- münaqişə Azərbaycan xalqının birləşməsi və milli şüurunun inkişafına təkan verdi.
- Bu dövrdə ermənilərin 1887-ci ildə Cenevrədə erməni millətçi partiyası «Hnçak» (Zəng) , 1890-cı ildə Tiflisdə dənizdən-dənizə «Böyük Ermənistan» yaratmağı qarşısına məqsəd qoyan «Daşnaksütun» (İttifaq) olduğu halda azərbaycanlıların milli partiyası yox idi.

1905-ci il qirgini

- 1905-ci il fevralın 6-da Bakının mərkəzində ermənilər tərəfindən Sabunçu sakini Ağarza Babayevin öldürülməsi milli partlayışa səbəb oldu
- şəhərdə atışma başladı. Polis və ordu fəaliyyətsiz idilər. Qətillər,qarətlər üç gün davam etdi. nəticədə 262 nəfər həlak oldu.
- Münaqişə İrəvan (20-21 fevral), Naxçıvan (may), Şuşa (iyun), Gəncə (15-18 noyabr), Tiflis (21 noyabr), Qazax (sentyabr), sonra yenə Bakı (avqust) davam etdi.
- bu hadisələr nəticəsində 158 Azərbaycan kəndi qarət edilib yandırıldı. Mənbələrdə ölənlərin sayı 3 mindən 10 minədək göstərilir.

Azərbaycanda siyasi partiyaların və ictimai hərəkatların yaranması. Difai

- Əhməd bəy Ağayevin təşəbbüsü ilə rus-erməni birliyinə qarşı gizli «Difai»(dəf etmək-qarşısını almaq) siyasi təşkilatı yaradıldı.(1905-1906).
- Partiyanın mərkəzi komitəsi Bakıda yerləşirdi. Onun tərkibinə Əhməd bəy Ağayev, Qarabəy Qarabəyov, Məmməd Həsən Hacinski, İsabəy Aşurbəyov, Behbud Cavanşir və Niftalıbəy Behbudov daxil idilər.
- «Difainin" Şuşa, Gəncə, Zəngəzur, Ağdam, Bərdə, Yevlax, Qaryagin və Cavanşirdə komitələri mövcud idi.Hər bir komitənin 50 nəfərdən 100 nəfərədək silahlı drujinaları var idi. Ən böyük döyüş drujinası Şuşada idi. Onun tərkibinə 400 nəfər daxil idi.
- «Difai»nin sosial bazası müxtəlif idi: ziyalılar, tacirlər, ruhanilər, kəndlilər
- «Difai» «Daşnaksütun»a qarşı mübarizə təşkilatı kimi yaransa da, fəaliyyətində xalqa təhsil, savadsızlığın ləğvi, kütlələri maarifləndirilməsi kimi məqsədləri də nəzərdə tuturdu
- «Difai»nin fəaliyyəti 1912-1917-ci iləqədər davam etmişdi.

Müsəlman gənclər təşkilatı

- 1902-ci ildə Bakıda 17 yaşlı Məmməd Əmin Rəsulzadə tərəfindən yaradılmışdı.
- Təşkilatın məqsədi çarizmin müstəmləkə siyasəti ilə mübarizə aparmaq, azərbaycanlıların milli şüurunun oyadılması və milli dilin inkişaf etdirilməsi idi
- Sosialist tipli idi, fəhlələr arasında azadlıq və inqilab ideyalarını təbliğ edirdi.
- Bu gənclər dərnəyi «Hümmət» təşkilatının yaradılması üçün təməl rolunu oynadı

Hümmət

- Müsəlman fəhlələri arasında iş aparmaq məqsədilə 1904-cü ildə Azərbaycan ziyalı-demokratları müsəlman dünyasında ilk sosial-demokratik təşkilat idi
- Azərbaycan dilində eyni adlı qəzet buraxırdı.
- təşkilatın üzvləri -S.M.Əfəndiyev, Əsədulla Axundov, M.Ə.Əzizbəyov, M.Ə.Rəsulzadə, M.H.Hacinski, H.Sultanov və b.
- 1905-ci ildə İranda başlamış inqilabda da iştirak etmişlər
- 1906-cı ildən hümmətçilər «Dəvət-Qoç» (Çağırış) və «Təkamül», 1907-ci ildən «Yoldaş» qəzetlərini buraxmağa başlamışlar.
- 1907-ci ildə həbslər nəticəsində «Hümmət»in fəaliyyəti əhəmiyyətli dərəcədə zəiflədi.
- 1920-ci ildə «Hümmət» digər sosial-demokratik partiyalarla: RSDFP-nin Bakı Komitəsi və«Ədalət»lə birləşərək, Azərbaycan Kommunist Partiyasını təşkil etdilər

«Qeyrət» partiyası

- 1905-ci ildə Gəncədə yaradıldı.
- Ideyası-muxtariyyət və Rusiyanın federativ quruluşu «Qafqazın müsəlman əhalisinin çoxluq təşkil etdiyi rayonlarının muxtariyyəti.
- Liderləri-Ələkbər bəy Rəfibəyov (hüquqşünas), A.Xasməmmədov (mülkədar) Xəlil bəy Xasməmmədovun qardaşı) , Nəsibbəy Yusifbəyli
- Partyianın fəaliyyəti 1908 1912-ci illərədək davam etdi

Müdafiə pariyası

- 1907-ci ilin mayında yarandı.
- Fəaliyyət dairəsi-Tiflis, Elizavetpol quberniyasının qərbi, Qazax, və Borçalı
- Partiyanın yaradanlar-İbrahim bəy Vəkilov, Ağabəy Qiyasbəyov (müflisləşmiş bəy), Hacı Kərim Sanıyev(müəllim) və b.
- Partiyanın rəhbəri I Dövlət Dumasının deputatı İsmayılxan Ziyadxanov.
- İdeyası-«Müdafiə» mülkədar torpaqlarının kəndlilər arasında bölüşdürülməsi, müsəlmanlar arasında ictimai birliklərin yaradılması, onların maarifləndirilməsi
- «Müdafiə» 1908-ci ilə qədər mövcud oldu

Müsavat» (Bərabərlik) partiyası

- Azərbaycanda milli hərəkatın rəhbəri olmuş bu milli-demokratik partiya «1911-ci ildə yaradılmışdı.
- Baniləri Məmməd Əli Rəsulzadə (Məmməd Əmin Rəsulzadənin əmisi oğlu), hümmətçilər Abasqulu Kazımzadə, Tağı Nağı oğlu, Kərbəlayi Vəli Mikayıl oğlu, Qulamrza Şərifzadə, Səid Musəvi, Yusif Ziya .
- Partiyanın ideya rəhbəri olan Məmməd Əmin Rəsulzadə özü bu zaman siyasi mühacirətdə idi. Partiya qeyri-leqal idi və 1917-ci ilin fevralına qədər gizli, ciddi məxfilik şəraitində işləmişdi.
- Partiyanın sıralarına ziyalılar, fəhlələr, tacirlər, kəndlilər, xırda burjuaziya, kontor xidmətçiləri daxil idilər.
- «Müsavat»ın ilk proqramı 1912-ci ildə qəbul edilərək, kitabça şəklində çap olunmuşdu. Proqramda millətlər arasında fərq qoymadan bütün müsəlman xalqlarının birləşməsi, müstəqillik uğrunda mübarizə aparan müsəlman ölkələrinə maddi və mənəvi kömək göstərilməsi və s. kimi vəzifələr .
- 1913-cü ildə Romanovlar sülaləsinin 300 illiyi münasibətilə elan edilən əfvlə M.Rəsulzadə mühacirətdən geri dönür və həmin vaxtdan «Müsavat»a rəhbərlik edir

Birinci Dünya müharibəsi 28 iyul 1914 – 11 noyabr1918

- **Gedişi**-Avropa, Afrika, Yaxın Şərq (qısa müddət Çində və Sakit Okean adalarında)
- **Müharibənini səbəbləri-**imperialist ölkələr arasındakı ziddiyətlərin kəskinləşməsi, dünyanın yenidən bölüşdürülməsi uğrunda Avropa dövlətlərinin iki hərbi-siyasi bloka bölünməsi. Bu ziddiyətlərin başlıcası Almaniya ilə Böyük Britaniya arasında idi.
- **Tərəfləri-** 1.Antanta İngiltərə,Fransa,Rusiya; 2.Üçlər ittifaqı (Alman,Avstriya-Macarıstan, İtaliya). Müharibənin gedişatında Üçlər ittifaqı Dördlər ittifaqına (Alman,Avstriya-Macarıstan,Türkiyə, Bolqarıstan) çevrilmişdir
- **Nəticəsi**-Antantanın qələbəsi

Tərəflərin müharibədə məqsədləri

- AlmaniyaBöyük Britaniya və Fransanın hesabına yenimüstəmləkələr zəbt etmək, Fransa və Rusiyanı zəiflətmək, onların müstəmləkələrinin bir hissəsini ələ almaq niyyətində idi.
- Onun müttəfiqiAvstriya-Macarıstan isə Balkan yarımadasında öz nüfüzunu genişləndirməyə və yeni ərazilər işğal etməyə çalışırdı.
- Böyük Britaniya müharibə yolu ilə Almaniyanı zəiflətmək, onun müstəmləkələrinin bir hissəsini ələ keçirmək, Osmanlı İmperiyasını bölüşdürmək ümidində idi.
- Fransız hökuməti də buna nail olmaq istəyirdi. Bundan başqa onlar, 1870-1871-ci illərdə Almaniya ilə olan müharibədə itirilmiş Elzas və Lotaringiya vilayətlərini geri almaq, Almaniyanın Reyn vilayətinin bir hissəsini ələ keçirmək istəyirdi. Rus çarizmi isə Balkanda, Bosfor və Dardanel boğazlarında öz hökmranlığını yaratmağa, həm də Almaniyanı iqtisadi cəhətdən zəiflətməyə çalışırdı



Birinci Dünya müharibəsinə qoşulan ölkələr. Antanta ölkələri yaşıl rəngdə, Almaniya və onun müttəfiqləri narıncı rəngdə

İtkilər

- **Antanta** 5 953 372 ölü, 9 723 991 yaralı 4 000 676 itkin
- **Dördlər ittifaqı** 4043397ölü; 8 465 286 yaralı 3 470 138 itkin

İmzalanmış müqavilələr.

- **Brest-Litovsk-** Rusiya Sovet Federativ Sosialist Respublikası (RSFSR) ilə Dördlər ittifaqı (Almaniya, Avstriya-Macarıstan, Türkiyə və Bolqarıstan) arasında
- **Mudros-** 30 oktyabr 1918-ci ildə Osmanlı imperiyası ilə Antanta dövlətləri arasında

Brest sülhündə Nümayəndələr

Azərbaycan müharibə edən dövlətlərin işğalçılıq planlarında

- Hərbi bloklara daxil olan dövlətlərin ayrı-ayrılıqda xüsusi işğalçılıq planları vardı.
- Bu planlarda Azərbaycan və onun nefti xüsusi yer tuturdu.
- Hələ müharibə ərəfəsində Azərbaycan neftini ələ keçirilməsi uğrunda ingilis və alman inhisarları rəqabəti artmışdır.
- Almaniya Bakı neftini ələ keçirmək üçün Türkiyədən istifadə etmək istəyirdi və bunun üçün hətta türk ordusunu müharibəyə hazırlayırdı.

Azərbaycanda müharibənin təsiri

- Rusiyanın müstəmləkəsi olan Azərbaycan da müharibənin acı nəticələrini yaşayırdı.
- 1887 ildən çarizm azərbaycanlılara qarşı “hərbi vergi”tətbiq etmişdi.
- Çar hökuməti azərbaycanlılara etibar etmədiyi üçün onları orduya çağırmırdı və bunun əvəzində onları 3 illik orta qazancı nəzərə alınmaqla vergi verməyi məcbur etmişdi.
- Bu işdə zadəgan uşaqları istisna təşkil edirdi. 1846 ilin dekabrın 6-da çar reskriptində bəylərin torpaqlarının qaytarılmasının əvəzində ali müsəlman silki ordu sıralarında xidmət etməli idi
- Müharibədə iştirak edən hərbçilər: Səmədbəy Mehmandarov,Əliağa Şıxlınski, Hüseynxan Naxçlvanski, İbrahimağa Vəkilov və b.

Səməd bəy Mehmandarov – İmperiya ordusunun artilleriya generalı,

Əli Ağa Şıxlinski (1863 1943) . General-leytenant

Naxçıvanski Hüseyn xan (1863 - 1919,) — general-leytenantı

Ibrahim Ağa Vəkilov general, ilk azərbaycanlı hərbi topoc

Qafqaz cəbhəsinin açılması

- Almanlar Türkiyəni Qafqaza sahib olması və Qafqazda müsəlman dövləti yaradılması kimi yalançı vədlərlə müharibəyə cəlb etdilər.
- Osmanlılar da keçmişdə itirdiyi torpaqları geri qaytarmağı, Qafqaz müsəlmanlarını çarizmin müstəmləkə əsarətindən xilas etməyi planlaşdırırdı.
- Rusiya isə boğazlara sahib olub Türkiyəni bölüşdürmək istəyirdi.
- 20 oktyabr 1914-ci ildə Osmanlı donanmasının Qara dənizdəki rus limanlarını atəşə tutmasıının cavabında Rusiya Türkiyəyə müharibə elan etdi.
- Bununla müharibənin yeni bir 2-ci dərəcəli cəbhəsi açıldı. Tez zamanda türk qoşunları Cənubi Qafqaza doğru irəliləyərək Cənubi Azərbaycan ərazisinə daxil oldular.
- Əsas hərbi əməliyyatlar: Sarıqamış, Ərzurum

Ənvər paşa, Osmanlı İmperiyasının görkəmli hərbiçisi və siyasi xadimi. 1914-cü ildə Almaniya ilə hərbi ittifaqın və Osmanlı dövlətinin I Dünya müharibəsinə girməsinin təşəbbüskarların

Müharibənin Azərbaycan üçün təsiri və nəticələri

.

- Azərbaycan rus müstəmləkəçiliyindən azad oldu.
- Milli burjuaziya daha da yetkinləşərək muxtariyyət ideyasından müstəqillik uğrunda mübarizəyə qoşuldu.
- Müstəqil Azərbaycan Xalq Cümhuriyyəti yarandı

Molla Nəsrəddin -İlk sayı 1906-cı il apreldə Tiflisdə

Müsəlman Şərqində ilk dünyəvi qız məktəbi

TƏŞƏKKÜRLƏR